Azərbaycan Respublikasının
Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin
İnkişafına
Dövlət Dəstəyi Fondu

# Ermənilərin sabiq dövlət xadimləri Qarabağ məsələsində qlobal məğlubiyyətlərinin hərtərəfli təhlilinə başlayıblar - haralarda səhv etdik...

**5-ci istiqamət: Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**

**Məlum olduğu kimi, 44 günlük müharibə başlayana qədər Ermənistan ictimaiyyəti hələ də elə düşünürdü ki, çox qısa müddətə Azərbaycanı məğlub edəcək, yeni ərazilər ələ keçirəcək. Zaman-zaman ermənilər belə hədələrlə çıxış edirdilər ki, Azərbaycan hücum etsə, yeni ərazilər itirəcək. Lakin Ermənistan anlamırdı ki, artıq ötən əsrin 90-cı illəri deyil.**

Onların qarşısında hərb sənətinin incəliklərini bilməyən könüllülər yox, dünyanın aparıcı orduları ilə müqayisə edilən güclü, intizamlı hərbi birləşmələr dayanıb. Ciddi nizam-intizamla formalaşan və ən müasir silahlara malik, son 27 ildə yalnız öz torpaqlarını azad etməyi düşünən bir ordu ilə müqayisədə korrupsiya və özbaşınalıqdan təngə gələn Ermənistan cəmi bir neçə günün içərisində elə ağır zərbələr aldı ki, müharibəni davam etdirə bilməyəcəyini anladı və xarici havadarlarının yardımına bel bağlamaqdan başqa çarəsi qalmadı.

### Ermənilər elə düşünürdülər ki, dünya Azərbaycana imkan verməyəcək

Başqa bir tərəfdən, Ermənistanda düşünürdülər ki, dünyadakı böyük havadarları, diaspor və lobbiləri bu dəfə də öz işini görəcək və Azərbaycanı geri çəkilməyə vadar edə biləcək. Lakin onlar bu dəfə yanıldılar. Son illər ərzində Azərbaycan diplomatiyası qələbə üçün bütün mühüm diplomatik addımları atdı və geniş lobbi şəbəkəsinə malik olan Ermənistan diplomatik müstəvidə də Azərbaycana məğlub oldu. Baxmayaraq ki, 44 günlük müharibə boyunca ermənilərin təsirində olan beynəlxalq kanallar heç vaxt olmadığı qədər fəallaşdırıldı və Azərbaycana qarşı ciddi təzyiq kampaniyasının keçirilməsinə cəhdlər oldu, bütün bunlar gözlənilən effekti vermədi. Azərbaycan beynəlxalq hüququ əsas götürərək, öz ərazilərində antiterror əməliyyatına və əks-hücuma başladı və BMT-nin, ATƏT-in Minsk Qrupunun 27 ildə edə bilmədiyini cəmi 44 gün ərzində həyata keçirə bildi.

### İndiyə qədər yeridilən maksimalist siyasət səhv olub

Diqqətçəkən məqamlardan biri də ondan ibarətdir ki, erməni siyasi elitasının mötədil mövqedən çıxış edən şəxsləri yaranmış vəziyyəti təhlil edərək çıxış yolları axtarırlar. Bu mövqedən çıxış edən şəxslərin ümumi fikri ondan ibarətdir ki, ermənilərin var olmasının çıxış yolu indiyə qədər yeridilən səhv və aqressiv siyasətdən əl çəkməkdən keçir. Qeyd edirlər ki, indiyə qədər yeridilən maksimalist siyasət səhv olub. Bu baxımdan, Ermənistan Prezidentinin keçmiş baş müşaviri, Miçiqan Universitetinin professoru, tarixçi Jirayr Liparidyan "Nə və niyə baş verdi? Altı tezis" adlı məqaləsində Ermənistan və erməni xalqının məğlubiyyətinin səbəblərini geniş analiz edib. Yeri gəlmişkən onu da qeyd edək ki, Liparidyan 1998-ci ildə müşavir vəzifəsindən gedəndən sonra zamam-zaman Qarabağ məsələsi ilə bağlı təhlillərlə çıxış edib.

J.Liparidyan "Nə və niyə baş verdi? Altı tezis" adlı məqaləsində qeyd edib ki, biz tariximizin son dərəcə ağır mərhələsindən keçirik: "Ordumuz sentyabrın 27-dən noyabrın 10-a qədər amansız müharibə aparıb və nəhəng nəticələrlə müşayiət olunan ciddi məğlubiyyət yaşayıb. Qaranlıq tuneldən çıxış yolu tapmazdan əvvəl nə və niyə baş verdiyini anlamaq lazımdır. Biz mütləq baş verənlərlə barışmalı və onları qəbul etməliyik.

1- Ermənistan, Qarabağ və erməni dünyası tarixi proporsiyaları itirdi.

- Biz müharibədə uduzduq. O müharibədə ki, nəyin bahasına olur-olsun, onun baş verməsinə yol verməməliydik. O müharibədə ki, orada qalib gələ bilməzdik.

- Xalqımızın daha bir hissəsi əcdadlarının evlərindən və öz kollektiv həyatlarından məhrum oldu.

- Biz gənc kişilərdən ibarət bütöv bir nəsli - ən dəyərli sərvətlərimizdən birini itirdik.

- Biz uzun illər boyu Qarabağa qoyduğumuz insan və maliyyə kapitalımızı itirdik.

- Baş nazirimiz Qarabağ münaqişəsinin həlli məqsədilə qarşısına qoyduğu üç hədəfdən məhrum oldu:

a) Qarabağın rəhbərliyini danışıqlar masasına qaytarmaq istəyirdi;

b) İstənilən həll münaqişəyə cəlb olunmuş üç xalq - Qarabağ, Azərbaycan və Ermənistanın xalqları üçün məqbul olmalıdır, deyirdi;

c) Hətta uzaq gələcəkdə olsa belə, Qarabağın müstəqilliyini təmin etmək imkanından danışırdı.

- Biz özgüvənimizdən, nikbinliyimizdən və əldə etdiyimiz nailiyyətlərin böyük hissəsindən məhrum olduq. Ola bilsin ki, hətta demokratiyaya inamımızı da itirdik. Biz nə baş verdiyini və niyə baş verdiyini qəbul etməyə qətiyyən hazır olmayan travmalı xalqıq.

- Biz öz müstəqilliyimiz və suverenliyimizin daha bir parçasını itirdik".

### Müharibəyə zəmin yaratmasaydılar, o zaman gənc nəsli itirməzdilər

Həqiqətən də Ermənistan işğalçılıq siyasətini davam etdirməklə böyük məğlubiyyətə uğradı. Əgər onlar torpaqları sülh yolu ilə azad edib müharibəyə zəmin yaratmasaydılar, o zaman gənclərini itirməzdilər. Bunun ölkənin demoqrafik vəziyyətinə necə böyük zərbə olduğunu təsəvvür etmək çətin deyil. Hələ bunun fəsadları bundan sonrakı illərdə müşahidə ediləcək. Çünki Ermənistanda əhalinin artması ilə bağlı ciddi problemlər var. Bu azmış kimi, müharibədə onların məruz qaldığı canlı itki sözügedən problemi daha da kəskinləşdirəcək.

### Böyük vəsait itirdilər

Başqa bir tərəfdən, Ermənistan və erməni lobbisi işğal olunmuş ərazilərdə qanunsuz məskunlaşma siyasətinə uyğun olaraq böyük vəsait xərclədilər. Ermənistan və xarici ölkələrdən erməniləri ətraf rayonlara köçürdülər. Orada bir sıra infrastruktur obyektləri yaratdılar. Bəzi məlumatlara görə, Dağlıq Qarabağ xaric, ətraf rayonlarda 17 min nəfər əhali qanunsuz olaraq məskunlaşdırılıb. Kəlbəcərdə onların sayı 3500 nəfər idisə, Laçında ermənilərin sayı 7 min nəfərdən çox olub. Hansı ki, bununla bağlı vəsaiti Ermənistan öz inkişafına yönəltsəydi, daha səmərəli olardı.




### Paşinyanın təklifləri dəstəklənmədi

Digər bir tərəfdən, Paşinyan Baş nazir olandan sonra bəyan etdi ki, Ermənistan Dağlıq Qarabağ ermənilərinin adından danışa bilməz. Onlar ayrıca tərəf olaraq danışıqlarda iştirak etməlidirlər. Onun bu təklifini nə Azərbaycan qəbul etdi, nə də ATƏT-in Minsk Qrupunun həmsədrləri. Hətta ermənilərə xüsusi rəğbəti ilə seçilən Fransa belə bu təklifi dəstəkləmədi. Maraqlı məqamlardan biri də ondan ibarətdir ki, Paşinyan Baş nazir olandan sonra Fransa məhkəmələri bu ölkənin şəhərlərinin separatçı qurumla "dostluq müqavilələrini" ləğv etdilər.

### Reallığı düzgün qiymətləndirmədiklərinə görə uduzdular

Liparidyan məqaləsində qeyd edib ki, reallığı düzgün qiymətləndirmək istəmədiklərinə görə müharibəni uduzublar: "Biz ona görə uduzduq ki, birlikdə reallığın gözünə baxmaq əvəzinə, rəhbərlərimiz iyirmi il ərzində öz mülahizələrini ideoloji, siyasi, partiya və şəxsi mülahizələr üzərində qururdular. Biz məğlub olduq, çünki güclər balansının dəyişdiyini görmək və zamanın artıq bizə işləmədiyini etiraf etmək istəmirdik. Biz özünü öz boşqabında hiss etmək duyğusunu strateji düşüncə ilə qarışdırmışdıq. Bizim problemimiz - danılmaz faktlara yox, xəyallara söykənən siyasi mədəniyyətimizdir: strategiya hazırlamaq üsulumuz da budur. Biz siyasi strategiyamızı öz arzularımız, bizə xoş olan şeylər əsasında qururuq, bizi əhatə edən reallığı yaradan sadə faktları nəzərə almırıq".

Azərbaycan ərazilərinin işğalı nəticəsində Ermənistan o qədər azğınlaşmışdı ki, onlar nəinki Dağlıq Qarabağı, ətraf 7 rayondan heç birini qaytarmaq istəmirdilər. Hansı ki, Ermənistanın resursları buna adekvat deyildi. Bir neçə dəfə danışıqların həlledici mərhələsində prosesi pozdular. Aşırı maksimalizm erməniləri faciəyə sürüklədi.

### Əldə etdikləri fürsəti itirdilər

"Business News" nəşrinin redaktoru Eduard Nağdalyan Ermənistanın Qarabağ müharibəsində məğlubiyyətinin səbəblərini təhlil etdiyi "Gələcəyin partlayış zamanlayıcısı" adlı bir məqalə dərc edib. Bu materialın Ermənistan siyasi rəhbərliyi tərəfindən on illərdir öz xalqını aqressiv ritorika və qonşu dövlətin ərazisindəki iddiaları ilə zəhərləyən ölümcül səhvləri ilə əlaqədar toxunduğu faktlar baxımından maraqlıdır. Material, eyni zamanda, erməni siyasi quruluşunun beynəlxalq hüquq normalarına və vasitəçilərin münaqişəni həll etmək səylərinə açıq şəkildə hörmətsiz münasibətini müəllifin təhlili ilə də diqqət çəkir. Müəllif yazısında qeyd edir ki, 1994-cü ildə ən vacib şeyi başa düşmədik: "Bu bazarlıq üçün çox az vaxtımız olduğunu başa düşmədik. Niyə? Birincisi, bazarlığın mümkün qədər tez, hərbi uğurun ən yüksək nöqtəsində olması Ermənistan və "Artsax"ın mənafeyinə uyğundur. Bu, Artsax üçün maksimum dividend təmin etdi.

İkincisi, bazarlığın uzanmasının və ərazilərin geri qaytarılmasının təxirə salınmasının Ermənistanı qonşu bir dövlətin ərazi bütövlüyünə qəsd edən işğalçı bir ölkəyə çevirməsinin son dərəcə ciddi təhlükəsini başa düşmədik. Dünya birmənalı şəkildə və heç bir halda bununla razılaşmazdı, əslində, bütün bu 25 il ərzində müşahidə etdik. Nəticədə mümkün olan ən pis yolu seçdik - status-kvonu qorumaq üçün bədnam variant, yeni məsələnin son həllindən və Azərbaycan ərazilərinin işğal rejimini qoruyaraq, bir sülh müqaviləsi imzalamaqdan imtina etdik. Bu, Ermənistanın faciəli xarici siyasət səhvi idi".

Göründüyü kimi, erməni siyasi elitası bu ölkənin böyük səhvlərə yol verdiyinin fərqindədir. Onların ümumi fikrindən belə məlum olur ki, Ermənistan qonşu dövlətlərlə normal əlaqələr qurmadan bu ölkənin gələcəyi yoxdur. Bunun üçün isə ermənilər, birinci növbədə, xəstə ideologiyalarından əl çəkib, təcavüzkarlıq siyasətinə son qoymalıdırlar.

### Aşırı maksimalizm onları uçuruma yuvarladı

Sözügedən məsələ ilə bağlı fikirlərini "Bakı-Xəbər"lə bölüşən siyasi ekspert Ramil Hüseynovun sözlərinə görə, əslində, ermənilər bu xəstə düşüncələri ilə özlərinə gor qazdılar: "1994-cü ildə Ermənistan döyüşü uddu. Baxmayaraq ki, Azərbaycan Ermənistana yox, onların arxasında dayanan güclərə uduzdu. Bu öz yerində. Döyüşü udan Ermənistanın o vaxtki prezidenti Levon Ter-Petrosyan təklif etdi ki, gəlin Qarabağa ən yüksək status müqabilində ətraf 7 rayonu qaytaraq. 1997-ci ildə Petrosyan mərhələli sülh variantına razılaşdı. Dedi ki, bu gün biz bu şərtlərlə razılaşmasaq, sabah buna görə Azərbaycana yalvaracağıq. Ancaq o zaman Azərbaycan bizim şərtimizlə razılaşmayacaq. Ermənilər nə etdilər? Maksimalist mövqedən çıxış edərək, 1998-ci ildə Petrosyanı devirdilər. Qarabağdakı quldurları "qəhrəman" hesab edib, hakimiyyətə gətirdilər. Nəticədə Ermənistan işğal etdiyi əraziləri hüquqi baxımdan özünə birləşdirə bilmədi, bütün böyük layihələrdən kənarda qaldı və ən nəhayət, Azərbaycanın hərb yolu ilə ərazilərini azad etməsinə zəmin yaratdılar. "Çox istəyən, azdan da oldu" məsələində deyildiyi kimi, Ermənistan hər şeydən məhrum oldu".

Siyasi ekspert hesab edir ki, Ermənistan hakimiyyəti, cəmiyyəti, elitası bütün bunlardan düzgün nəticə çıxaracaqsa, o zaman ölkə olaraq dünyanın siyasi xəritəsində qalacaq. Yoxsa bundan da pis günə düşəcəklər.

***Vidadi ORDAHALLI***

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**